**RƏSUL RZA**

# Heyvanların yuxusu

**Bakı**
**Uşaqgəncnəşr 1956**



Uşaqlar, ay uşaqlar,
Bilirsinizmi nə var?
Bilmirsiniz, eləmi?
Kimin kağız, qələmi
Var, əlinə götürsün,
Mənə yaxın otursun.
Xoşuna gələnləri
Bir-bir kağıza yazsın;
Ancaq ki, səs salmayın.
Yaxşıca qulaq asın!
Kim ki, hələ kiçikdir,
Getməyir hələ dərsə,
Kim ki, özü oxumaq,
Yazmaq hələ bilmirsə,
Eybi yoxdur, sakitcə
Otursun, darıxmasın.
Qoy bir nəfər oxusun,
Qalanlar qulaq assın.
Ayı, qurd, tülkü, dovşan,
Arı, it, pişik, ceyran,
Toyuq, balıq, kəpənək
Yatıb dincəlsin gərək.
Birisi gecə yatır,
Birisi gündüz yatır.
Biri bükülür yatır.
O biri dümdüz yatır.
Bəzisi tək-tək yatır,
Bəzisi çox sıx yatır.
Qurdlar göz-gözə yatır.
Dovşan gözü açıq yatır.
Rəngli-rəngli balıqlar
Gecələr suda yatır,
Əlvan xallı kəpənək
Yorulur, o da yatır.
Dovşana kolun dibi
Xoş gəlir, balığa su.
Maraqlıdır, şirindir
Heyvanların yuxusu.



## AYININ YUXUSU

Payız çıxmışdı çoxdan,
Qışın oğlan çağıydı.
Dərə-təpə, çöl, bayır
Başdan-başa ağ idi.
Qarın ağır yükündən
Geyinmişdi budaqlar.
Ara vermirdi bir gün
Yağdıqca yağırdı qar.
Yağırdı lopa-lopa.
Hər xırda kol, hər topa
Geymişdi ağ kürkünü,
Qoymuşdu ağ börkünü.
Çaylar, göllər, nohurlar
Qalın buz bağlamışdı.

Hərdən külək əsirdi,
Şaxtalı, qarlı qışdı.
Bu zaman yanvar ayı,
Gödəkquyruq boz ayı
Kahasında yatmışdı,
Bərk yuxuya batmışdı.
Mağara çox soyuqdu,
Arada bir oyandı,
Yeməyə bir şey yoxdu.
Bir xeyli donquldandı.
Yenə alıb ağzına
Sordu öz pəncəsini,
Gözünü yumdu yatdı,
Tamam kəsdi səsini.



Yuxusunda nə gördü!
Qəribə səhnə gördü.
Hər yanda birdən-birə
Başqalaşdı mənzərə.
İstiləşdi havalar,
Nə buz qaldı, nə də qar
Meyvəli, barlı payız,
Heyvalı, narlı payız.

Bəzədi dörd bir yanı
Bütün çölü, obanı,
Ayı o yana baxdı.
Döndü bu yana baxdı.
Meyxoş armud iyindən
Ağzının suyu axdı.
Gördü tamam ağaclar
Meyvədir qatar-qatar.
Armudlar qarpız boyda,
Budaqlardan sallanıb.
Marçıldatdı ağzını
Boz ayı xoşhallanıb.
Gördü ki, cərgə-cərgə,
Bir-birindən yekə
Düzülübdür armudlar,
Hər yanda qatar-qatar.
Həm də özləri bir-bir
Gəlib ağzına girir.
Hamısı şərbət kimi,
Şəkər kimi, qənd kimi.
Ayı yedi, yeyincə,
Yedi lap tıx deyincə.
Yediklərini yedi,
— Qalanlarını,— dedi,
— Saxlaram sabaha.
Ac qalmaram mən daha.
Nə gördü o bu zaman;
Yekəcə koğuşundan
Hündür, qoca palıdın,
Yoğun uca palıdın
Damcı-damcı bal axır.
Axır, dalbadal axır.
Dayandı bala baxdı.
Ağzının suyu axdı.
Bəs arılar hardadır?
Bəlkə yuxarıdadır?



İndi dız-dız gələrlər,
Lap dərimi dələrlər.
Var iti bıçaqları,
Zəhərli sancaqları.
Ayı bir xeyli müddət
Ağaca etdi diqqət.
Gördü nə səs-səmir var,
Nə sancaqlı arılar.
Deyindi öz-özünə,
İnanmadı gözünə:
Gördü bütün arılar,
Nə ki, sancaqları var,
Yığıblar bir tərəfə,
Özləri durub səfə.
Deyirlər: — Xoş gəlmisən!
Bizim tərəflərə sən.

Ayı qardaş, bura gəl!
Bal ye doyunca, dincəl!
Kəhraba bal, sarı bal,
Çiçəklərin barı bal
Həsrət qalıbdır sənə,
Bir doyunca yesənə.
Nə tələs, nə də darıx,
Qorxma, qorxma, sancmarıq
Nə qədər istəsən var,
Həm ye, həm də yığ apar.
Bu bal sənindir indi.
Ayı xeyli sevindi,
Uzatdı pəncəsini.
Yaxında it səsini
Eşidərək bu zaman
Ayıldı yuxusundan.





## DOVŞANIN YUXUSU

Səhərdən axşama bütün gün-
düzü,
Gəzib dağı-daşı, dərəni,
düzü,
Axır yorğun düşüb yatmışdı dovşan,
Altında quru ot, üstündə
yovşan.
Yuxusunda gördü: Açılıb səhər,
Əlvan paltar geyib dağlar,
dərələr.

Əsər qalmamışdır köhnə
kol-kosdan,
Hər yer bağ-bağatdır, hər
tərəf bostan.
Bir yanda şırhaşır axır
sərin su,
Havanı doldurur kələm qoxusu.
Dovşan bir az baxdı o yan,
bu yana,
Sonra da üz qoydu birbaş
bostana.

Az getdi, üz getdi,
Dağ, dərə düz getdi.
Qoltuğunda vardır bir yekə
torba,
Getdi ayağından toz qopa-
qopa,
Dayanıb yanında balaca arxın,
Dərdi nəfəsini bostana
yaxın
Boylandı o yana, bu yana
baxdı.
Yola göz gəzdirdi, bostana
baxdı.





Gördü qaraulçu xorhaxor
yatır.
Ordları gah şişir, gah
tamam batır.
Keçdi lovğa-lovğa onun
yanından.
Baxdı, gördü bostan:
amma nə bostan!



Bir yanda qırmızı, şirin
çuğundur.
Yekə bir palıddan daha
yoğundur.
Çəpərin üstündən aşıb
keçib tağ.
Sallanıb ağ kudu, sarı
balqabaq.
Pamidor var, biri sığmaz
bir ələ.
Qarpızı, yemişi demirəm hələ...
Kələmlər hərəsi bir dam
boydadır.
Xiyarın hər biri adam
boydadır.
— Mənim axtardığım bax,budur!—
dedi.
Əzəl bir doyunca kələmdən
yedi.
Sonra, bir pamidor dartıb
qopartdı
Dişlədi.

Turş!—deyib kənara atdı,
Kökü, çuğunduru, yoxladı
bir-bir.
Bəh-bəh nə dadlıdır, əcəb şirindir.
Müxtəsər ki, qarnı tutunca
yedi.
— Evə də bir qədər aparım
dedi.
Bir kələm qoparıb çiyninə
aldı.
Bir xiyar tağını boynuna
saldı.
Balqabaq, çuğundur, kök,
qarpız, yemiş,
Yığdı torbasına, dəymiş, dəyməmiş,
Bostanın yarısını yığdı
az qala.
Düzəldi yola.
Qaraulçu hələ şirin
yatırdı.
Ordları gah qalxır, gah
da batırdı.

Dovşan saymazyana gedirdi
yolu.
Qoltuqları dolu, torbası
dolu.
Tərs kimi bu zaman qalxdı
bir külək
Yekə ağacları silkələyərək

Dovşanın burnuna toz
doldu yaman.
Birdən „apçı" deyib asqırdı
dovşan.
Qaraulçu dim-dik yerindən
qalxdı.

Tez yana baxdı, bu yana
baxdı.
Yol tərəfə baxıb dovşanı
gördü.
— Dayan! qaçma, vurdum! —
yuyurdu.

Tüfəngi tuşladı, çaxmağı
çəkdi.
Ancaq... tüfəngə bax, neçə
tüfəngdi.
Güllə əvəzində atdığı
kökdü.
Neçə kökü tozlu yollara
tökdü.
Dovşan yığışdırdı kökləri
bir-bir.
Dedi bu da mənim, bu da
mənimdir.
Şirin yuxusundan ayıldı
bu an,
Xeyli ovuşdurdu gözünü
dovşan.
Gördü, nə bostan var,
nə də kələm var.
Dedi şirin olur əcəb yuxular.





## KƏPƏNƏYİN YUXUSU

Səhər-səhər yasəmənlər
Meh dəydikcə əsirdi.
Alabəzək bir kəpənək
Çəmənləri gəzirdi.
Gördü bütün dörd bir yanı
Başdan-başa gül-çiçəkdir.
Hamısı da qanadlıdır.
Çiçəklər də kəpənəkdir.
Gah qaçırlar çölə sarı,
Gah qaçırlar gölə sarı,
Sallanmışdır suya salxım
Söyüdlərin yarpaqları.



Düşüb güllü budaqların
Əksi gölün sularına.
Bir çiçəkli bağça kimi
Görünürdü sular ona.
Öz əksini gördü birdən
Alabəzək ayna suda.
Elə bil ki, canlanmışdı
Gölün zümrüd aynası da.
Dedi:—xal-xal qanadımda
Yüz çiçəyin naxışı var.
Mən olmasam açmaz çiçək,
Mən olmasam gəlməz bahar.
Öz-özünə şənlənərək
Nazlandı çox alabəzək.
Mixək gülü, ağ qərənfil,
Lalə, nərgiz, tər qızılgül

Ona „gəl! gəl!"— deyirdilər.
„Sinəmizə qonub bir az
Burada dincəl"—deyirdilər.
Öz-özünü bəyənərək
Şellənirdi alabəzək.
Nə qonurdu qızılgülə,
Nə qonurdu qərənfilə.
Çiçəklərin yarpağından
Şeh düşürdü gilə-gilə.
Öz kəpənək dilində o,
Oxuyurdu şirin-şirin.
Sözləri də maraqlıdır
Oxuduğu nəğmələrin:
—Əlvan bahar, şux bahar!
Bəzənib gül bağçalar.
Quşlar, mənə dəyməyin.
Mənim üç gün ömrüm var.
Adım alabəzəkdir,
Qanadlarım ipəkdir.
Bacım mənə oxşayır,
O da yaman göyçəkdir.
Kəpənəyəm, kəpənək»
Xallarım vardır tək-tək.
Mən gələndə çiçəklər
Başını əysin gərək.
Öz-özünə ceyran olub
Oxuyurdu bütün günü.
Heç duymadı çiçəklərin
Bugün ondan küsdüyünü.
Sevinərək, şellənərək
Çox nazlandı alabəzək.
Sonra da üz tutdu gölə,
Sual verdi ona belə:
— Sən gözəlsən,
Mən gözələm,
Qərənfillər gözəldir?
Sən gözəlsən,
Mən gözələm,
Qızılgüllər gözəldir?
Göl dinmədi.
Elə bil ki,
Bu sözlərdən utandı,
Sarı yarpaq düşdü,
Gölün zümrüd suyu bulandı.
Hərləndi göy dağları,
Bağçaları, bağları;
Çox yoruldu kəpənək.
Qondu bir tək budağa,
Sığındı göy yarpağa.
Yuxuya getdi bərk-bərk.
Gördü çölü duman alıb,
Göyün üzü çox qaralıb.
Əsir, əsir soöq külək,
Budaqları titrədərək.
Baxdı sola, baxdı sağa,
Alt budağa, üst budağa.
Nə gördü?
Bir bubbu quşu
Yuvasından busur onu.
Dimdiyindən tez tanıdı
Onu, bubbu olduğunu.
Bir səs gəldi:
— Yaxşı düşdün
Əlimə sən, alabəzək!
Ya ver bir cüt qanadını,
Ya da səni udam gərək.
Alabəzək titrəyərək,
Dedi: — aman!
Elə demə!

Bir az dayan!
Məni yemə!
Neynəyirsən qanadımı?
Məhv edərsən həyatımı!
Mənim üç gün ömrüm vardır.
Bax hər tərəf xoş bahardır.
Bubbu bacı, dəymə mənə;
Nə istəsən, verim sənə
Bubbu bir az fikirləşdi.
Bir uzandı, bir gərnəşdi.
Dedi:—Yaxşı, bir şərtim var
Yuvamdakı bu yarpaqlar
Çox quruyub xəzəl olub.
Gül yarpağı gözəl olur.
Get, güllərdən, çiçəklərdən
Yarpaq yığıb gətir mənə.
Öz yuvamı döşəyim mən.
Ləzzət versin ətri mənə.
Əgər fikrin qaçmaq olsa,
Hara getsən busa-busa
Bil ki, səni tapacağam.
Məhv olarsan onda tamam.
Yuxusunda, əsə-əsə.
Alabəzək bir nəfəsə
Uçub gəldi, Qızılgülə
Öz dərdini dedi belə:
— Qızılgülüm, əziz gülüm!
Yarpaqları təmiz gülüm!
Sənə işim düşüb mənim.
Bubbu quşu, köhnə qənim
Yuvasından görüb məni.
Deyir:—Yeyəcəyəm səni!
Xalı kimi salıb çin-çin
Yuvasını bəzəməkçin,
Qanadıma düşüb gözü
Budur onun axır sözü
Ya ver bir cüt qanadını,
Xilas elə həyatını,
Ya get hər gül hər çiçəkdən
Yarpaq gətir yuvama sən.
İndi məndən əsirgəmə,
Gözəl gülüm, bir yarpağı.
Biz səninlə dostuq axı!
Gül bu sözə aldırmadı,
Başını da qaldırmadı.
Alabəzək çox pərt oldu.
Bu hal ona bir dərd oldu.
Əsə-əsə qanadları getdi
Qərənfilə sarı.
— Dedi:
Qəşəng qərənfilim.
Gözəl, göyçək qərənfilim.
Sənə işim düşüb mənim:
Bubbu quşu, köhnə qənim
Yuvasından görüb məni.
Deyir:—Yeyəcəyəm səni.
Xalı kimi salıb çin-çin
Yuvasını bəzəməkçün
Qanadıma düşüb gözü.
Budur onun axır sözü
— Ya ver bir cüt qanadını,
— Xilas elə həyatını!
Ya get hər gül, hər çiçəkdən
Yarpaq gətir yuvamçın sən!
İndi məndən əsirgəmə,
Qərənfilim, bir yarpağı
Biz səninlə dostuq axı!
Qərənfil də susub durdu,



Başını da qaldırmadı.
Alabəzək çox yalvardı,
Qərənfil heç aldırmadı.
Qanadları titrəyərək
Uçub getdi alabəzək.
Gah dil açdı yasəmənə,
Gah yalvardı göy çəmənə.
Dinləmədi onu heç kəs;
Bütün səyi getdi əbəs.
Qorxusundan əsə-əsə
Qaçdı kölə bir nəfəsə.
Dedi: —gölüm,
Zümrüd gölüm!
Sənə qalıb ümid, gölüm.
Qızılgül də küsüb məndən,
Qərənfil də küsüb məndən.
Üz döndərib yasəmən də,
Susub durub göy çəməndə.
Ya bir yerdə gizlət məni;
Ya da gülü, yasəməni
Yola gətir.
Mənə ancaq
Versin hərə bircə yarpaq.
Göldən də bir səs gəlmədi,
Alabəzək dincəlmədi.
Dedi:
—Təqsir özümdədir,
Çiçəkləri küsdürmüşəm.
Öz-özümü yaxşı görüb,
Qalanları pis görmüşəm
Hər gözündən bir damcı yaş
Düşdü yerə yavaş-yavaş.
Nələr gördü elə bu an:
Hər tərəfdən əlvan-əlvan
Gül-çiçəklər səslənərək
Dedi: — Gəl-gəl, alabəzək.
Hər qanadın bir çiçəkdi
Aramızda itəcəkdir.
Yüz gün gəzsə göy çəməni
Bubbu quşu tapmaz səni.
Gördü gül də, gəl-gəl deyir
Qərənfil də, gəl-gəl deyir!
Sevincindən elə bu an
Ayıldı öz yuxusundan.
Baxıb gördü nə bubbu var
Nə sərt külək, nə bulutlar
Hara baxsan gül-çiçəkdir.
Hamısı da, elə bil ki,
Qanadlı bir kəpənəkdir.

**MƏKTƏB YAŞINA ÇATMAMIŞ UŞAQLAR ÜÇÜN**

Redaktoru Ə.Ziyatay.
Bədii redaktru M.Qasımov.
Texni.redaktoru E. Arzumanov. Korrektoru T.Bağırova
Çapa imzalanmış 5/x-1956-cı il.
Kağız formatı 60x92 1/8-2,5 çap vərəqi.(Uç.-nəşr.v. 2,5).
Tirajı 30.000.Sifariş 453
Uşaqgəncnəşr, Bakı, Fioletov küçəsi, 8.
Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 26 komissar adına mətbəəsi, Bakı,
Əli Bayramov küç, 3.



**РАСУЛ РЗА**

Сон животных

(на азербайджанском языке)

Азербайджанское Издательство Детской и Юношеской Литературы Баку —1956